AGHAOGHLU
NEGOTIATION AND
CONTRACT DRAFTING
COMPETITION

# 2025 AĞAOĞLU DANIŞIQLAR VƏ MÜQAVİLƏ TƏRTİBİ MÜSABİQƏSİ

## MÜSABİQƏ İŞİ

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ **MƏHKƏMƏ MÜSABİQƏ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Veb-sayt: bsumootcourtsociety.org

E-poçt: info@bsumootcourtsociety.org

BSU Moot Court Society

## Əsas faktlar

§1 "Ares Technology" QSC müdafiə sənayesi sahəsində yüksək texnologiyalara malik və müdafiə təyinatlı məmulatların satışı ilə məşğul olan hüquqi şəxsdir. Şirkət 2000-ci ildə Drakoria Respublikasında[1] təsis edilmiş və qısa müddətdə ölkənin müdafiə sənayesinin aparıcı iştirakçılarından birinə çevrilmişdir. Fəaliyyətə başladığı ilk illərdən etibarən, məhsul keyfiyyətinə və müştəri etibarına xüsusi önəm verən şirkət həm daxili, həm də xarici bazarda bir sıra mühüm uğurlar qazanmışdır. Belə ki, 2023-cü ilin statistik göstəricilərinə əsasən, Drakoria Respublikasının müdafiə təyinatlı məmulatlar üzrə ümumi ixracının 40%-i "Ares Technology" QSC-nin payına düşmüşdür. Beynəlxalq bazarda məhsullarına olan bu cür artan tələbatı nəzərə alaraq, "Ares Technology" QSC-nin direktoru Rüzgar Dəmirova istehsal imkanlarını genişləndirmək və ixrac potensialını daha da artırmaq məqsədilə yeni əməkdaşlıq imkanlarını araşdırır və bu məqsədlə çoxsaylı şirkətlərlə danışıqlar aparır.

§2 "Nova Defense" MMC 2025-ci ilin yanvar ayında Azərbaycan Respublikasında təsis edilmiş və həmin ilin mart ayında müdafiə sənayesi sahəsində fəaliyyət göstərmək üçün qanunvericilikdə nəzərdə tutulmuş müvafiq lisenziyaları əldə etmişdir. Qısa müddət ərzində şirkət tərəfindən müdafiə təyinatlı məmulatların istehsalı üçün zəruri olan istehsal sahəsi formalaşdırılmış, ixtisaslı mühəndis heyəti cəlb edilmiş, həmçinin şirkət müasir avadanlıqlar və infrastrukturla təchiz edilmişdir. Bu addımlar "Nova Defense" MMC-yə yeni texnologiyaların hazırlanması istiqamətində "Tədqiqat və İnkişaf" *(Research & Development)* fəaliyyətinə başlamasına imkan yaratmışdır. Şirkət öz məhsulunun yaradılma prosesini tamamlayanadək alınma texnologiya əsasında istehsal xətti qurmaqla biznes fəaliyyətinə başlamaq niyyətindədir.

§3 2025-ci ilin iyul ayında İstanbul şəhərində keçirilən "IDEF-2025" Beynəlxalq Müdafiə və Təhlükəsizlik Sərgisində "Nova Defense" MMC-nin direktoru Ataş Barıtov və mühəndis heyəti "Ares Technology" QSC-yə məxsus stenddə "IronHeaven-24" pilotsuz uçuş aparatının (bundan sonra – PUA) prototipləri (Əlavə 1) ilə tanış olurlar. Belə ki, müşahidə, kəşfiyyat və hava monitorinqi məqsədləri üçün nəzərdə tutulmuş PUA 40 km-ə qədər əməliyyat məsafəsinə

[1] Drakoria Respublikası Avropa İttifaqının üzvüdür.

və maksimum 120 dəqiqəlik fasiləsiz uçuş müddətinə malikdir. O, 5 kq-a qədər partlayıcı daşıya bilir və HD keyfiyyətində real vaxtlı video ötürülməsini təmin edir. PUA-nın siqnal itkisi zamanı avtomatik olaraq başlanğıc nöqtəsinə qayıtma funksiyası mövcuddur. O, 16 000 mAh gücündə, dəyişdirilə bilən modul batareya ilə işləyir, həmçinin –20°C-dən +50°C-yə qədər temperatur şəraitində uçuş əməliyyatlarını həyata keçirə bilir.

§4 Prototiplə tanışlıqdan sonra "Nova Defense" MMC-nin nümayəndə heyəti onun Azərbaycan Respublikasında istehsalının həyata keçirilməsi qərarına gəlmişdir. Bu məqsədlə sərgi zamanı keçirilən görüşdə qarşılıqlı əməkdaşlıq imkanları və istehsal xəttinin qurulması məsələsi müzakirə edilmiş və danışıqların davam etdirilməsi qərara alınmışdır.

§5 "Nova Defense" MMC PUA-nın texnologiyasına və lisenziyasına sahib olacağı təqdirdə, onun istehsalını həyata keçirmək üçün zəruri olan maddi-texniki və kadr bazasına malikdir. Bundan başqa, Ataş Barıtov əvvəllər müdafiə sənayesi sahəsində böyük şirkətlərin satış meneceri olduğu üçün onun Şərq ölkələri ilə uğurlu əlaqələri var.

§6 Digər tərəfdən "Ares Technology" QSC PUA üzrə öz istehsal potensialından artıq həcmdə sifarişlər qəbul etmiş və bir sıra müqavilələr bağlamışdır. Sifarişlərin icra müddətinin yaxınlaşması və gecikmə halında böyük məbləğdə cərimələrin tətbiq olunması riskini nəzərə alaraq, PUA texnologiyasını "Nova Defense" MMC-yə transfer etmək həm istehsal gücünü artırmaq, həm də mövcud sifarişlərin vaxtında icrasını təmin etmək imkanı yaradacaqdır.

§7 Hazırda PUA-nın vahidinin bazar dəyəri 10 000 avro, maya dəyəri isə 3 000 avro təşkil edir.

## Müqavilənin predmeti

§8 "Nova Defense" MMC PUA-nın texnologiya transferinə və lisenziyasına görə 5 milyon avro ödəməyi və 5 il ərzində PUA satışından əldə olunan xalis mənfəətdən pay verməyi öhdəsinə götürür.

§9 "Ares Technology" QSC isə öz növbəsində, PUA-nın texnologiyasını transfer etməyi və lisenziya verməyi öhdəsinə götürür.

## Müqavilədə tənzimlənməsi zəruri olan məsələlər

§10 Layihə icrası üçün PUA-nın istehsal texnologiyasının transferinin həyata keçirilməsi və birgə əməkdaşlığın tənzimlənməsi üzrə vahid müqavilə bağlanmalı və müqavilədə ən azı aşağıdakı məsələlər tənzimlənməlidir:

A. PUA-nın istehsal texnologiyasının transferi və lisenziya şərtləri;
Tərəflər müvafiq texnologiya transferinin formasını (sənəd toplusu, təlimlər, ixtisaslı kadrların ezam edilməsi və s.) və texnologiya üzərində lisenziyanın şərtlərini (müstəsnalıq, müddət, ərazi dairəsi, geri götürülməsi və s.) razılaşdırmalıdırlar.

B. Birgə əməkdaşlığın idarə edilməsi şərtləri;
Tərəflər həm texnologiyanın transferi, həm də sonrakı istehsalın təşkili üçün birgə əməkdaşlıq şərtlərini müəyyən etməlidirlər.

C. PUA satışından əldə edilən mənfəətin bölüşdürülməsi şərtləri;
Qurulmuş əməkdaşlıq nəticəsində PUA-nın istehsalı və satışı mümkün olduqda, müştərinin "Ares Technology" QSC və ya "Nova Defense" MMC tərəfindən cəlb edilməsindən asılı olaraq mənfəətin bölüşdürülməsi şərtləri müəyyən edilməlidir.

D. Layihənin icrası üçün tənzimlənməsi tələb olunan digər məsələlər.
Bu cür məsələlərə tətbiq olunan hüququn, mübahisələrin həlli metodunun seçilməsi, tərəflərin öhdəlikləri, zəmanətlər və s. aiddir.

**Əlavə 1. "IronHeaven-24" PUA-sının prototipi.**

# "IRONHEAVEN-24"

Ares Technology

"IDEF-2025"



**OPERATIONAL**

Up to 40 km

Up to 120 min

**CAMERA AND DATA TRANSMISSION**

HD quality real-time video transmission

**ENDURANCE**

Can carry up to 5 kg of explosives

**SIGNAL LOSS RETURN**

Automatically returns to the starting point

**ENERGY SYSTEM**

Replaceable 16 000 mAh battery